Kim bir mömini dünya sıxıntılarının birindən qurtararsa, Allah da onu Qiyamət gününün sıxıntılarının birindən qurtarar

Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Allahın Rəsulu (səlləllahu aleyhi va səlləm) belə demişdir: "Kim bir mömini dünya sıxıntılarının birindən qurtararsa, Allah da onu Qiyamət gününün sıxıntılarının birindən qurtarar. Kim borcunu qaytara bilməyən bir kimsənin işini asanlaşdırarsa, Allah da onun dünya və axirətdəki işlərini asanlaşdırar. Kim bir müsəlmanın eyblərini örtərsə, Allah da onun həm bu dünyada, həm də axirətdə eyblərini örtər. Kişi mömin qardaşına kömək etdiyi müddətdə, Allah da ona kömək edər. Kim elm öyrənmək üçün yola çıxarsa, Allah bununla onun Cənnətə gedən yolunu asanlaşdırar. Əgər bir toplum Allahın evlərindən hər hansı birində yığışıb Allahın Kitabını oxuyarsa və onu bir-birinə öyrədərsə, onların üzərinə sükunət nazil olar, rəhmət onları bürüyər, mələklər onları əhatə edər və Allah onları Öz yanında olanlar arasında yad edər. Kimin əməli onu geriyə çəkərsə, nəsəbi onu irəliyə apara bilməz".

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (sallallahu əleyhi va səlləm) bu hədisdə bəyan etmişdir ki, müsəlmanın Uca Allah yanında mükafatı, onun digər müsəlmanlara qarşı etdiyi yaxşılıqlara uyğundur. Kim bir mömini dünya çətinlikləri və məşəqqətlərinin birindən xilas edər, onları aradan qaldırar, mömini qurtarar və onun sıxıntısını həll edərsə, Uca Allah onun bu əməlinə mükafat olaraq, onun Qiyamət günündəki sıxıntılarından birini aradan qaldırar. Kim borcluya asanlıq yaradar, çətinliyini yüngülləşdirər və onun ağır vəziyyətini aradan qaldırarsa, Uca Allah da ona dünyada və axirətdə asanlıq bəxş edər. Kim bir müsəlmanın bildiyi və açıqlanması gərəkməyən qüsurlarını və səhvlərini gizlədərsə, Uca Allah da onu (qüsurlarını və səhvlərini) həm dünyada, həm də axirətdə gizlədər. Kişi, qardaşına din və dünya işlərində yardım etməyə davam etdikcə, Uca Allah da ona kömək etməyə davam edər. Bu yardım dua ilə, fiziki güclə, mal ilə və ya başqa vasitələrlə olur. Kim Allahın razılığını qazanmaq niyyəti ilə şəri elm öyrənmək üçün səfərə çıxarsa, Allah bunun sayəsində ona Cənnətə gedən yolu asanlaşdırar. Əgər bir toplum Allahın evlərindən hər hansı birində toplanıb Allahın Kitabını oxuyarsa və onu bir-birinə öyrədərsə, onların üzərinə əmin-amanlıq və sakitlik nazil olar, Allahın rəhməti onları əhatə edər və bürüyər, mələklər onları dövrəyə alar və Allah onları, Ona yaxın olan mələklər yanında tərifləyər. Allahın qulunu uca toplumda anması, ona şərəf olaraq yetər. Kimin əməlləri naqis olarsa, bu onu, yaxşı əməl sahiblərinin dərəcəsinə çatdırmaz. Buna görə də insan, nəslinin şərəfli olmasına və ata-babalarının fəzilətinə güvənib, saleh əməllər işləməyə laqeyid olmamalıdır.